# Ağsu: hərtərəfli inkişafa qayğı xalqın rifahının yüksəldilməsinə xidmət edir





Regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Azərbaycanın ardıcıl islahatlara və sistemli proqramlara əsaslanan dinamik sosial-iqtisadi inkişafı 2015-ci ilin ötən dövründə də uğurla davam etdirilmişdir. Hökumətin fəaliyyətinin əsasını təşkil edən iqtisadi inkişafın başlıca hədəfi xalqın rifahının yüksəldilməsidir. Bu məqsədə nail olunması üçün makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi və regionların davamlı inkişafı təmin edilmişdir.

2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclasında ətraflı müzakirə olunmuşdur.

Ölkə başçısı qeyd etmişdir ki, respublikamızda aparılan məqsədyönlü siyasət nəticəsində daha yüksək inkişaf göstəricilərinə malik olan iqtisadiyyatımız əhalinin etibarlı sosial müdafiəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin etmişdir.

2015-ci ilin doqquz ayı Ağsu rayonunda da uğurlu nəticələrlə başa vurulmuş, iqtisadiyyatın ayrı-ayrı sahələrində inkişafa nail olunmuşdur.

Rayon icra hakimiyyətində cari ilin 9 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Şura iclasında icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyevin məruzəsi dinlənilmişdir. O qeyd etmişdir ki, Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası davam etdirilib, bu müddətdə yeni iş yerlərinin açılması, tikinti, quruculuq və abadlıq işləri diqqət mərkəzində saxlanılıb, sosial problemlərin həllinə qayğı göstərilmişdir. Yollar küçə və meydanlar asfaltlaşdırılmış və abadlaşdırılmışdır.

Əhalinin və iqtisadiyyatın bütün sahələrinin elektrik enerjisi və təbii qaz təminatının yaxşılaşdırılması, nəqliyyat infrastrukturunun tikintisi və əsaslı təmiri istiqamətində bir sıra işlər görülmüş, bu istiqamətdə müvafiq tədbirlər davam etdirilir.

Belə ki, cins heyvandarlıq, taxılçılıq, toxumçuluq, tərəvəzçilik və bağçılıq sahələrinin inkişafının dəstəklənməsi davam etdirilib.

2014-cü ildə 2015-ci ilin məhsulu üçün 34289 ha sahədə payızlıq taxıl (bundan da 14270 ha buğda, 20019 ha arpa əkini təşkil edir), cari ildə 2419,1 ha sahədə yazlıq bitkilərin əkini aparılıb. Taxıl və yazlıq bitkilərin əkini sahələrinə yüksək səviyyədə aqrotexniki qulluq göstərilmişdir (əkin sahələrinin suvarılması, alaq otlarından təmizlənməsi, mineral gübrə verilməsi, ziyanvericilərə qarşı mübarizə tədbirləri və s.). 2015-ci ilin 9 ayında "Aqrolizinq" yolu ilə fermerlərə və ailə-kəndli təsərrüfatlarına 771,35 ton mineral gübrə satılmışdır.

Rayonda 34289 hektar sahənin taxılı biçilib və hər hektardan orta məhsuldarlıq 34,7 sentner olmaqla 119,1 min ton məhsul əldə olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə uyğun olaraq 15,7 sentner və ya 49,4 min ton çoxdur.

Rayonda fəaliyyət göstərən "Süsən Aqro" MMC və "Qarabağ taxıl " MMC-nin taxılçılıq sahəsində uğurları daha sevindirici olmuşdur. Belə ki, hər iki cəmiyyət tərəfindən elm və texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yüksək məhsul istehsalına gətirib çıxarmışdır. "Süsən Aqro" MMC 753 ha taxıl sahəsindən 3659 ton məhsul əldə etməklə orta hesabla hər hektardan 48,6 sentner, "Qarabağ taxıl" MMC isə 365 ha sahədən 1724 ton taxıl məhsulu götürməklə orta hesabla hər hektardan 47,2 sentner məhsuldarlığa nail olmuşlar.

Hesabat dövründə 1048 ton kartof, 4290 ton tərəvəz, 4469 ton bostan, 3642 ton meyvə, 1609 ton üzüm məhsulu əldə olunmuşdur. Üzüm, meyvə və bəzi yazlıq bitkilərin yığımı davam etdirilir.

2016-cı ilin məhsulu üçün 5944 ha sahədə şum çıxarılmış, 216 ha sahədə payızlıq taxıl əkilmişdir. Hazırda şum çıxarılması və payızlıq səpin davam edir.

Buğda və çəltik istehsalçılarının maddi marağının artırılması, buğda və çəltik istehsalının stimullaşdırılması məqsədilə dövlət büdcəsinin vəsaiti hesabına dövlət yardımının verilməsi təmin edilib. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə dövlət maliyyə yardımının verilməsi üçün müvafiq sənədlər hazırlanıb respublika komissiyasına təqdim edilmişdir.

Hesabat dövründə rayonda fəaliyyət göstərən emal müəssisələri məhsul tədarükü və istehsal prosesini davam etdirmiş, istehsal olunmuş məhsulların satışı üzrə geniş bazar funksiyasını həyata keçirmişdir.

Quşçuluğun sənaye üsulu ilə inkişafı davam etdirilib. Cari ilin doqquz ayında "Şaban-Quşçuluq" MMC-də 26,4 ton toyuq əti istehsal edilərək satılmışdır.

Bu müddətdə mal-qaraların cins tərkibinin yaxşılaşdırılması, ətlik maldarlığın inkişaf etdirilməsi üçün rayonda 6 nəfər süni mayalama texniki fəaliyyət göstərib, 273 baş inək texniklər tərəfindən mayalandırılıb, 451 baş bala alınıb. Hesabat rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı artmışdır. Belə ki, ət istehsalı 75 ton artaraq 3869 ton, süd istehsalı 579 ton artaraq 20969 ton, yumurta istehsalı ( min ədədlə) 9 min ədəd artaraq 5906 min ədəd, yun istehsalı isə 3 ton artaraq 301 ton olmuşdur.

2015-ci ilin ötən 9 ayında Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara 75 investisiya layihəsinin maliyyələşdirilməsi üçün 825,0 min manat dövlətin güzəştli kreditləri verilmişdir. Bu kreditlər hesabına 124 yeni iş yerinin yaradılmasına imkan yaranacaqdır.

2015-ci ilin ötən 9 ayında da sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılıb, abadlıq-quruculuq işləri davam etdirilib. Şəhidlər Xiyabanında əsaslı təmir işləri aparılıb, abidə yeni layihə ilə bərpa olunub, hasarlar sökülərək yeni tərtibatda tikilib. H.Əliyev küçəsinin şimal hissəsində ulu öndərin portreti əks olunmuş lövhənin və küçə adının yeni tərtibatda işi başa çatdırılıb, hasarlar aqlay üzlük daşları ilə üzlənib, səkilərə tamet döşənib, C.Cabbarlı, Bakı - Şamaxı - Yevlax yolunun Ağsu ərazisindən keçən hissəsində abadlaşdırma, yaşıllıq zolaqlarının salınması işləri aparılıb. T.İsmayılov, 20 Yanvar, Taryel Xasıyev, Səməd Vurğun, Sabir və Firdovsi küçələri abadlaşdırılıb. Belə ki, hasarlar dekorativ üzlük daşlarla üzlənib, boyanıb, piyada səkiləri yenidən bərpa edilib. M.Ə.Rəsulzadə küçəsində divarların Aqlay tavaları ilə dekorativ üzlənməsi, səkilərə beton bordür qoyulması və tamet tavaların döşənməsi işləri davam etdirilib.

Hesabat dövründə şəhərin H.Əliyev, H.Məmmədov, M.Müşfiq, D.Qorqud, Koroğlu, Ü.Hacıbəyov, C.Şərifov, N.Vahidov, Nizami, M.Ə.Rəsulzadə, Famil Məmmədli, C.Məmmədquluzadə, M.Füzuli, Firdovsi, S.Quliyev, Mehdi Hüseyn, C.Cabbarlı, Xətai, N.Tağızadə küçələrinin, Şamaxı - Yevlax avtomobil yolunun Ağsu şəhərinə aid olan hissəsinə və ona bitişik olan paralel küçələrin hərəkət hissəsinin asfaltlaşdırılması təmin edilmişdir. Asfaltlaşan küçələrin ümumi sahəsi 294,4 min kvadratmetr, uzunluğu 39,4 kilometrdir.

Ətraf mühitin mühafizəsi və ekoloji sabitliyin təmin olunması istiqamətində tədbirlər davam etdirilib. Belə ki, "İDEA" İctimai Birliyi tərəfindən həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma marafonu" çərçivəsində rayon üzrə ümumilikdə 11000 ədəd uzunömürlü ağac əkilib.

Bundan başqa şəhərin küçə və meydanlarında, yol kənarlarında ümumilikdə 28600,0 kvadratmetr yaşıllıqlar salınmış, 8700 ədəd müxtəlif növ uzunömürlü və dekorativ bəzək ağacları, 45 min ədəd gül kolları əkilmişdir.

Bu müddətdə H.Əliyev Parkında ulu öndərin abidəsi qranit daşından olan yeni abidə ilə əvəz edilib. Ağsu - Kürdəmir yolunun Ağsu şəhərinə giriş hissəsində stela tikilib. Ağsu şəhərində YAP Ağsu rayon təşkilatı üçün inzibati bina, Şahmat məktəbi, İdman Komleksi və şəhərin içməli su şəbəkəsi istifadəyə verilib, rayon Telekommunikasiya Qovşağının və Poçt Filialının inzibati binası əsaslı təmir olunub.

Eyni zamanda şəhərdə Kənd Təsərrüfatı İdarəsi üçün inzibati, 100 yerlik uşaq bağçası üçün yeni binanın, "Azqranata" MMC üçün yeni süzmə sexi və soyuducu anbar binaların, şəhid ailələri və Qarabağ Müharibəsi əlilləri üçün 10 ədəd hər biri 3 otaqdan ibarət fərdi yaşayış evlərinin, rayonun Pirhəsənli, Rəhimli və Cəlayir kəndlərində modul tipli su təmizləyici qurğuların, onlarla ticarət, iaşə, məişət və servis xidməti obyektlərinin tikintisi, şəhərin müxtəlif mərkəzi küçələrində mövcud olan bir sıra sahibkar obyektlərinin fasad hissələrinin gülbax daşı ilə üzləndirilməsi, obyektlərin memarlıq görkəminin yaxşılaşdırılması, eləcə də rayon mərkəzində və kəndlərdə abadlıq, quruculuq, tikinti, sosial obyektlərin təmiri və bərpası istiqamətində əsaslı işlər davam etdirilib.

Ümumiyyətlə, 2015-ci ilin 9 ayında fəaliyyətə başlayan yeni və bərpa edilmiş müəssisələrdə, aparılan abadlıq və quruculuq işlərində 404 nəfər işlə təmin olunmuşdur ki, onlardan 286 nəfəri daimi işlə təmin olunanlardır.

Cari ilin ötən dövründə Ağsu rayonunun yaşayış məntəqələrinin qaz təminatının bərpası və yenidən qurulması, qaz almayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması məqsədilə tikinti-quraşdırma işləri davam etdirilib.

Hesabat dövründə rayonun daha 9 kəndinin, Kəndoba, Cəlayir, Abasxanlı, Hacıuşağı, Cəfərli, Ağabəyli, Rəhimli, Şahbəyli və Qaradağ kəndlərinin təbii qazla təmin edilməsi məqsədilə Hacıqabul MQKS-nin Kəndoba qazpaylayıcı stansiyasında əsaslı təmir işləri başa çatdırılıb.

Bu müddətdə ümumilikdə abonentlərinin sayı 1113 olan 9 kənd yaşayış məntəqəsində 95,8 min metr daşıyıcı və paylayıcı qaz kəmərlərinin çəkilişi başa çatdırılıb, qazlaşdırılan bütün mənzilə İtron tipli qaz sayğacları quraşdırılıb və təbii qazın verilişi təmin edilib. Bundan başqa ümumi abonentlərinin sayı 611 olan Kəndoba Rəhimli və Abasxanlı kəndlərində qazlaşdırma işləri sürətlə davam etdirilir. Tikinti işləri aparılan bütün kəndlərə ilin sonuna qədər qazın verilməsi nəzərdə tutulur.

Kənd yaşayış məntəqələrinin qazlaşdırılması işləri təsdiq edilmiş qazlaşdırma proqramı əsasında davam etdirilir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı"na əsasən Dünya Bankı və Azərbaycan Hökuməti ilə birgə maliyyələşdirilən "Milli Su Təchizatı və Kanalizasiya xidmətləri üzrə İkinci Layihə" çərçivəsində Ağsu şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması istiqamətində işlərin icrası 2012/2013-cü illərdə davam etdirilib. Layihə çərçivəsində Ağsu rayonunda 116,7 kilometr su, 110,0 kilometr kanalizasiya şəbəkəsi tikilib, su şəbəkəsi üzərində 5500 ədəd və kanalizasiya şəbəkəsi üzərində 5300 ədəd evlərə birləşmə quraşdırılıb. Layihə üzrə 22,8 kilometr uzunluqda olan magistral su xəttinin 22,7 kilometr hissəsi, 5,4 kilometr magistral kanalizasiya xəttinin 5,4 kilometr hissəsi tikilib, 1500,0 kubmetr həcmində olan su anbarı tikilib. Lakin şəbəkənin tikintisi Ağsu şəhərinin bütün ərazisini əhatə etməmiş, layihələndirmə sənədləri hazırlanarkən yeni salınan yaşayış massivləri nəzərə alınmamışdır. Su şəbəkəsi üzrə tikinti işləri başa çatdırılaraq istismara verilib, sayğaclaşdırma işləri aparılır. Hazırda 4200 ədəd sayğac quraşdırılıb, iş davam etdirilir. Təmizləyici qurğu tikilmədiyi üçün kanalizasiya şəbəkəsi üzrə tikinti işləri başa çatdırılmayıb.

Təmizləyici qurğunun layihə-smeta sənədləri ekspertizadan keçirilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

Natiq daha sonra qeyd etmişdir ki, 2014/2015-ci tədris ilində 537 nəfər şagird tam orta təhsilini başa vurmuş, 273 nəfər ali təhsil müəssisələrinə sənəd vermiş, onlardan 103 nəfəri, yəni 37,7 faizi ali məktəblərə qəbul olmuşdur. 2014/2015-ci tədris ilində rayon üzrə məzunların ali məktəblərə qəbulun keyfiyyət göstəricisi 19,2 faiz olmuşdur.

2015-ci ilin 9 ayında 145 çarpayılıq Ağsu Mərkəzi Rayon Xəstəxanasının yeni binasının tikintisində işlər davam etdirilib. Rayonun Kəndoba kənd həkim məntəqəsində əsaslı, İlxıçı kənd həkim məntəqəsində cari təmir işləri aparılıb. Əsaslı və cari təmir işlərinə ümumilikdə 43,5 min manat vəsait sərf edilib, 44,0 min manatlıq tibb avadanlığı, 63,8 min manatlıq inventar alınıb.

İlin sonuna kimi rayon iqtisadiyyatının daha da yüksəldilməsi, əhalinin sosial problemlərinin həlli, özəl sektorun inkişafına köməklik göstərilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, abadlıq-quruculuq işlərinin aparılması, sənaye, tikinti, nəqliyyat və rabitə müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Söz yox ki, ağsulular ölkə başçısının ətrafında bundan sonra da daha sıx birləşərək ölkəmizin sosial-iqtisadi tərəqqisi naminə dövlətimizin genişmiqyaslı strategiyasının həyata keçirilməsinə öz töhfəsini verəcəkdir.

Sonda müzakirə olunan məsələ ətrafında çıxışlar olmuşdur.

**İlham PƏNAHOV,**
**"Respublika".**